# Tədbir keçirilmişdir





**Biləsuvar rayonu 4 saylı qəsəbə klubunda 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar bayram tədbiri keçirildi.**

Bayram tədbirini açan Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Mahmud Quliyev rayon əhalisini və yığıncaq iştirakçılarını xalqımızın birlik və mütəşəkkilliyinin, milli təəssübkeş və vətənə sədaqətinin rəmzi olan 31 dekabr — Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibəti ilə təbrik etdi. İcra başçısı dedi:

—Dünya Azərbaycanlılarının Həmrəylik Günü — Azərbaycan millətinin birliyi günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Bu əziz günün yaradıcısı ümummilli liderimiz Heydər Əliyevdir. Ulu öndər 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlədiyi dövrdə dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişdir. Həmin vaxtdan bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunur. Rayon rəhbəri hazırda bu önəmli işin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirildiyini bildirdi.

Bayram tədbirinin bədii hissəsi rayon Mədəniyyət və Turizm Şöbəsinin hazırladığı konsert proqramı ilə davam etdirildi. Şöbənin musiqi kollektivinin üzvləri Fatma Əhmədova, Nargilə Əhmədova, Allahverdi Məmmədov, Oqtay Əliyev, Məhəmməd Abdullayev, Namiq Vəliyev, Qurban Baxşəliyev, “Tərəkəmə” folklor qrupunun rəhbəri Sədaqət Ağayev, rayon musiqi məktəbinin yetirmələri Gülnarə Hümbətova, Zəminə Hüseynova və Çinarə Məhərrəmova bir-birindən gözəl mahnıları ilə tədbir iştirakçılarına xoş ovqat bəxş etdilər. Tədbirdə hüquq-mühafizə orqanlarının, idarə, müəssisələrin rəhbərləri, ərazi nümayəndələri, məktəb direktorları, müəllimlər, ictimaiyyət nümayəndələri, YAP fəalları, ağsaqqallar iştirak edirdi.

**Tofiq HÜSEYN,**
**“Respublika”.**